## VƏFALI DOST !

**Zeynal HƏSƏNƏLİYEV**
*BDU-nun Beynəlxalq münasibətlər
və iqtisadiyyat fakültəsinin dekanı, professor*

Əzizim Xəlil müəllim! Mən eşidəndə ki, sənin 70 yaşın tamam olur, inanmaq istəmədim. Çünki sənin maşallah olsun, gümrah zahiri görkəmin, gənclik ehtirasından heç də xali olmayan fikir və mühakimələrin, bəzən auditoriyalarda emosiyalılıqla çıxışların, gözəl Arif kimi oğul balanın atası olmağın, doğrudan da bu şərəfli ömür yubileyinə yetişməyini inanılmaz edirdi. Digər bir tərəfdən isə, sən ömürünü yetmişini, səksənini, yüzünü hələ yaşının nisbətən erkən çağlarında haqlamısan. Çünki sənin təfəkkürünün dərinliyi, məsləhətlərinin bir ağsaqqal müdrikliyi ilə aşılanmış olması, allahdan gələn iradə və səbir, vətən qeyrətli , dövlətə və dövlətçiliyə sədaqətin, ailənə və dostlarına olan xoş rəftarın səni lap gəncliyində ikən ağsaqqalaşdırmışdır.

Əzizim Xəlil. Sən öz yurdunu, obasını, doğulduğun Gədəbəy torpağını sevən bir insansan, özün demişkən "dünyada elə bir məmləkət, elə bir yurd-yuva olmaz ki, mənim ata-babamın doğulduğu bölgədən-Gədəbəydən gözəl, doğma və nurlu olsun". Əzizim, ola da bilməz.

Şair demişkən:
İstər payızda gəl, istər yazda gəl,
Taparsan güneydə qar Gədəbəydə.

Səninlə bir-iki dəfə yol yoldaşı, həmsöbət olmaq kifayətdir ki, sənin həqiqətən də humanist, vətənini sevən, dostluqda möhkəm, qayğıkeş bir insan olduğunu təsdiq edəsən. Sənin xoşbəxtliyinin daha bir mühüm mərhələsi sənətini, tələbələrini sevən gözəl insan olmağındadır.

Tanıyanlar səni qəlbində əziz dost, gözəl alim, yumora üstünlük verən, qəlblər oxşayan vəfalı bir insan kimi tanıyır.

Sən xoş xasiyyətin, mülayim təbiətin, sadəliyin, açıq danışığın, incə yumorun ilə hamının sevimlisisən. Sən anamız təbiətin gözəlliklərinə sığal verə-verə gözəllik aşiqinə çevrilmisən.

əzizim Xəlil müəllim, 70 illik yubileyin yaxınlaşır. Bu illərdə sənin xoş və sevincli, ağrılı və acılı günlərin də çox olub. Bu illərin davamı kimi mənalı, xoşbəxt və uzun bir ömür arzulayıram.

Səni 70 yaşın tamam olması münasibətilə təbrik edir və Naxçıvan səfərimizin təkrar olmasını arzulayıram.